Ədalət 2019.- 5 noyabr.- S.5.

# Ürəklə yazılanlar

## (Rəşad Məcidin publisistikası)



Loğman Rəşidzadə

**Rəşad Məcidin publisistik yaradıcılığına xas cəhətləri bir az da xırdalamaq olar. Amma bizcə, onun bu irtiqamətdəki yaradıcılıq estetikasının və ədəbi-publisistik fəlsəfəsinin açılımı üçün dediklərimiz də müəyyən mənada, kifayət edər. O bu məsələləri və öz fəlsəfi-estetik kredosunu ”Yeni paytaxt ehtiyacı”, ”Səfərin təzəsi, dostun köhnəsi”, ”Əlvida və salam”, ”Ağ dənizin duzu”, ”Mətbuat tarixinə yazılacaq böyük hadisə”, ”Dostluğun böyük nümunəsi”, ”İdarəçilik Akademiyasında jurnalistika dərsi”, ”Dövlət İdarəçilik Akademiyasında növbəti dərs”, ”Doğma adamın ”Köhnə və təzə Bakı” nağılı”, ”Hamıya çatası işıq”, ”Gördüyüm ilk diri şair”, ”A” roman”, ”Şair və nasir Fəhmi”, ”İki 5”, ”Ləqəbi Ağsaqqal”, ”Gəncədəki ruh”, ”Özgə planetdən gələn”, ”Ağ qoç, qara qoç”, ”Nə yaxşı tapdım özümü”, ”Uğura aparan yol”, ”Əsəd bəy və Nuridə xanım”, ”57 il öncənin borcu” və başqa məqalələrində geniş diapazon və spektrdə açıqlamışdır.**

Rəşad Məcidin jurnalistikasının həyata cəsarətlə müdaxilə edən zəngin və rəngarəng mövzular üzərində intişar tapması onun bədii publisistikasının mayasına yeni məna qatır. O, son dərəcə aktual, zəruri mövzulara toxunur, incə mətləbləri çözələyir. O, açıq, aydın düşüncəyə yol açan, insan qəlbini riqqətə gətirən, işıqlı ideyalar formalaşdıran məsələlərdən söz açır.

### *Rəşad Məcid o publisistlərdəndir ki,*

adilikdə qeyri-adilikləri sezə bilir, çoxlarının yanından sakit-səssiz ötə bildiyi nəsnələri ictimai fikrin diqqətinə yönəldir. Belədə o, müqtədir, bir söz ustasıdır, anlayan və anladan maarifçidir, problemləri sona qədər təşrih edən ictimai cərrahdır. Son anda gələcəyə işıq tutan yolgöstərəndir.

”Rəşadın bir-birini təkrarlamayan mövzularda bəhs etdikləri fərqli bir rakursdan, həm də stilinə xas ifadə etməsi publisistik səriştəsinin göstəricisidir.” (Şəfəq Nasir, ”Dəlicəsinə sevə bilsən”). Bəli, Rəşad Məcidin çevik intellektinin və yaradıcı təfəkkürünün nəticəsidir ki, həm onun öz yaradıcılığında, həm də ”525-ci qəzet”in (bu da eləcə onun yaradıcılığının bir qanadıdır) səhifələrində mövzu zənginliyi və rəngarəngliyi ilə qarşılaşırıq. Bu, həm də onun redaktorluq bacarığından, mühərrirlik istedadından və səriştəsindən süzülüb gələn bir xüsusiyyətdir. Yaxşı redaktorun beyni ictimai mətləblərlə ləbələb dolu informasiya bankı, yaradıcılıq emalatxanası olmalıdır, fikriylə razılaşmamaq olmur. Ə.Haqverdiyev Mirzə Cəlil haqqında xatirələrində yazırdı: ”Mirzə Cəlil dost qazanmaqda, ziyalıları işə çəkməkdə məharət yetirmişdi. Yazmaq istedadı olanlara və mövzu qarşısında məəttəl qalanlara mövzu verməkdə yədi-beyzası var idi. Guya ki, mövzuları cibindən çıxarırdı”.

Belə misallar yaxın tariximiz və demək olar ki, müasirlərimiz sayılan müqtədir redaktorlarımız üçün də xarakterikdir. Azərbaycan mətbuatının korifeylərindən biri, ”Bakı”, ”Baku” qəzetlərinin banisi, yaradıcısı və 30 ildən çox bu qəzetlərə başçılıq etmiş Nəsir İmanquliyev bizə, gələcək jurnalistlərə tələbə vaxtı dərs deyəndə publisistikada mövzu seçiminə dönə-dönə toxunardı.

### *Deyərdi ki,*

**diqqətli jurnalist hər şeydə, yolda küləyin ağzında çövlan edən adi bir kağız parçasında, cırılmış kitab vərəqində də mövzu tapa bilər. Küçədə gedəndə hər şeyə diqqət yetirin, dükana-bazara baş çəkin, kinoteatrlara yolunuzu salın, adicə afişalara, elan vərəqələrinə nəzər yetirin, ən əsası da insanları müşahidə edin, onların üz cizgilərini, hərəkətlərini, sevinc və kədərini ufadə edən jest və mimikalarını yadınızda saxlayın. Bütün bunların hamısı gələcəkdə sizin üçün mövzu mənbəyi olaraq yaddaşınızda kodlaşacaqdır.**

Digər bir mətbuat korifeyimizin bu tipli tövsiyələrini və təcrübi hərəkətlərini, öyüd və nəsihətlərini öz həyatımda, öz taleyimdə birbaşa yaşamışam. Bizim unudulmaz müəllimimiz və mənim ilk redaktorum Nəriman Zeynalov redaktorluğun bütün parametrləriylə nümunə olduğu kimi mövzu seçməkdə də taysız-bərabərsiz idi.

Redaktorluğu dövründə ”Sovet kəndi” qəzetində doğrudan da o, bir inqilab etdi və yeni məktəb yaratdı. Mövzu seçməyi isə tamam başqa aləm idi. Bir dəfə məni çağırıb sorğu-sualsız dedi ki, get növbəti nömrəyə bir felyeton hazırla, adını da qoy ”Qarpız kəsdim yeyən yox...”. Sonra əlavə etdi, eşidibsən, belə bir mahnı? Dedim, eşitmişəm. Dedi ki, mahnıdan yazma ha, camaat qarpızdan zəhərlənib qırılır. Bildin də...

**Bir dəfə də axşamüstü çağırıb dedi ki, mən bilirəm, Nazim Hikməti çox sevirsən, öhdəsindən gələrsən. Sabahkı nömrəyə Nazim Hikmətdən bir şey yaz, adını da qoy ”Mən bir ceviz ağacıyam...”. Gecə yatmadım. Səhər tezdən böyük bir material artıq redaktorun stolunun üstündəydi. Nöqtə-vergülünə toxunmadan çapa göndərdi. Səhv eləmirəmsə, N.Hikmətin 70 illik yubileyi idi.**

### *Söylədiklərimə xatirə kimi yanaşmayın*

Bu xatirələrdə jurnalistikamızın həm nəzəri, həm də təcrübi dərslərinin yaddaş xəritələri cızılmışdır. Bəli, jurnalistikada mövzu seçimi prosesi uğurun yarısıdır, bəlkə bir az da artıq. Rəşad Məcid belə müqtədir insanların, əvəzolunmaz müəllimlərin məktəbini keçdiyinə görə özü də qurucu oldu, məktəb yaratdı. Məhz bu redaktor həssaslığıdır ki, özünü onun publisistik nümunələrində də yaradıcı eleksir kimi göstərir. Məhz, Mirzə Cəlildən üzübəri həmin yaradıcı ruhdur ki, Rəşad Məcid kimi redaktorların simasında təcəlla tapır.



Qeyd etdik ki, Rəşad Məcid öz publisistikasında həmişə ciddi əks-səda verən hadisələrə, impulsiv problemlərə toxunur. Bu aktual məsələlər onun vətəndaş narahatlıqlarından qaynaqlanır. ”Rus bölmələri haqqında köhnə mif” (”525-ci qəzet”, 16 mart, 2019-cu il) adlı analitik yazısında Azərbaycan üçün tarixən üzücü, ağrılı bir məsələ olan orta məktəblərdə rus dilinin tədrisi probleminə toxunulmuşdur. Bugün bütün olmuş və olacaqlara baxmayaraq, Azərbaycan insanı rus başqısının üfüqdə parıltısını daim görə-görə, bu kal meyvənin acısını həmişə dadadada yenə də ona kütləvi meylin havasının yaşantısı publisistə qəribə gəlir. Bu həvəsin kökündə dayanan hansı hissdir, hansı həvəsdir? Rəşad Məcid açıq-aydın bir mövqeylə, sadə, anlaşıqlı mühakimə tərzi ilə bu bəlanın simptomlarını araşdırır. Düzdü, bizdə digər xarici ölkələrin dili də kifayət qədər geniş şəkildə tədris olunur. Lakin heç bir xarici dilə bu qədər meyl və həvəs də yoxdur. Bu da təhlükəli bir sindroma gətirib çıxarır, nəticədə rus dili Ana dilimizi üstələməyə başlayır. Ziyalı narahatlığı və nigarançılığı da əsasən, buradan qaynaqlanır.

### *R.Məcid ciddi bir təəssübkeşliklə*

yazır: ”Sonda bir məqamı qeyd edim ki, məncə, Azərbaycanda kimsə rus dilini bilməyin, öyrənməyin əleyhinə deyil. Rus dili dünyanın ən zəngin, işlək dillərindən biridir, böyük ədəbiyyat, mədəniyyət, elm dilidir. Bu dildə dünyanın bir çox məşhur şəxsiyyətləri danışıb-yazıblar və indi də belədir. Üstəlik, rus dili qonşu, tarixən bağlı olduğumuz nəhəng bir dövlətin dilidir. Bütün buna görə ruscanı da öyrənib-bilmək vacibdir. Amma çox vacib, hətta taleyüklü bir şərtlə: hansısa başqa dilin, o cümlədən ruscanın Ana dilimizdən nəinki yüksək, heç ona bərabər də tutulmasına, dövlət dilimizin önünə keçməsinə imkan vermədən!”.

**Rəşad Məcid Qurban bayramı ərəfəsində cəmiyyətimiz üçün digər bir ağrılı məsələyə ziyalı həssaslığı ilə münasibət bildirmişdir. Hamımıza məlumdur ki, bir çox istedadlı tələbələr təhsil haqqını ödəyə bilmədikləri üçün daxil olduğu ali məktəblərdə oxuya bilmirlər. Rəşad Məcid bu məsələyə sərt reaksiya verib və imkanlı adamları bu işdə yardımçı olmağa çağırıb. Burada da onun mövqeyi sərtdir, birmənalı və qətidir. Bu yazıda o, imkanlı, zəngin vətəndaşlarımızı təhsil haqqını verə bilməyən gənclərimizə köməyə çağırır. Onun müraciəti tərpədici və səfərbəredicidir. ”Qarşıdan Qurban bayramı gəlir. Peyğəmbərimiz də elmi ibadətdən üstün tutub. O qoyunları sıraya düzüb cənnətə yol axtarınca bu tələbələri sevindirib savab qazanın!**

### *Ən yaxşı cənnət*

təhsil almaq istəyən gənclərin dualarındadır!..

Buyurun zənginlərimiz”.

Ən nəhayət, ”Qələmsiz yazılanlar... Virtual aləmə səyahət, Rəşad Məcidin sms dünyasında görüşlər, statusların romantik ab-havasında üfüq ovqatı... İnternet saytlarından istifadə, hansısa bir sosial şəbəkədə mövcudluq, ola bilsin ki, bəziləri üçün əyləncə, digərlərindən ötrü vaxt öldürmək, iddiasını, təşnəsini söndürmək, bir başqası üçün dəb xatirinə dəstədən geridə qalmamaq cəhdləridir. Yazıçı- publisist, üstəlik Rəşad Məcid kimi həssas, hər şeydə min bir məna axtaran və tapan istedadlı yazarlar üçün əyləncəli virtual məkan ciddi ədəbiyyat və jurnalistika meydanına da çevrilə bilərmiş. Rəşad hər kəsin adi və saya, yaxud ötəri və keçici sandığı, əyləncə hesab etdiyi nəsnələri də ədəbiyyat və publisistikanın ciddi predmetinə çevirməyi bacardı və özünün ”cığıracan”lıq statusunu bir daha yeni bir ilkə imza atmaqla möhürləmiş oldu. R.Məcidin təqdim etdiyi esse-sms-lər, yığcam süjetli statuslar, digər internet söhbətləri publisistikanın çevik, eksklüziv janrıdır. ”Azərbaycan ədəbiyyatı və mətbuatı tarixində Rəşad Məcid tam yeni janrlara imza atmışdır. ”Status-esselər” və ”sms-esselər” adlandırdığı sosial şəbəkə yazışmalarında ilk dəfə Rəşad Məcid müstəqil janr kimi söz açmışdır.” (Akademik İsa Həbibbəyli).

### *Rəşad Məcidin ”Qələmsiz yazılanlar” virtual esseləri,*

kodlaşmış alqoritmik ədəbi- publisist düşüncələri heç şübhəsiz ki, müasir dünya bədii təfəkküründə gəlişmiş bir formadır. Bu virtual düşüncələr yaradıcılıq üslubu və elektron janr kimi Azərbaycan ədəbiyyatında və jurnalistikasında da artıq oturuşmağa başlamışdır. Bu düşüncələr Xalq yazıçısı Kamal Abdullanın ”Əvvəl-axır yazılanlar”, Rəşad Məcidin ”Qələmsiz yazılanlar” adıyla dərc edilərək üzə çıxmışdır. Bu yaxınlarda mərhum ədəbiyyatşünas, görkəmli tənqidçi və böyük ziyalı Arif Əmrahoğlunun ”Fasebook” statusları tələbələri tərəfindən toplanaraq ”525-ci qəzet”in 19 iyul 2019-cu il tarixli nömrəsində yer aldı. Demək, təşəbbüs ənənəyə çevrilməyə başlamışdır.

Azərbaycan ədəbiyyatında və publisistikasında kimsə sinəsini irəli verib bu işi aşırmalıydı, zamanın tələbi kimi bu addım gec-tez atılmalıydı. Rəşad Məcid ilk təşəbbüskar oldu, yeniliyi yeni tərzdə ictimai rezonansa çevirə bildi. Bundan sonra, ola bilsin ki, virtual ədəbiyyat və publisistika janrı ənənəvi yazıları, hətta, üstələmiş də olsun.

Bu zaman nə tarix, nə də virtual ədəbiyyat və jurnalistikaya gələn yeni nəsil, əlbəttə, Rəşad Məcidin xidmətlərini unutmayacaqdır.

Bu xüsusda Mehman Həsənli ”Ədəbiyyatda esse” adlı məqaləsində yazır: ”Rəşad Məcid ”Əvvəl-axır yazılanlar” silsiləsindən (Kamal Abdulla) ruhlanaraq sosial şəbəkələrdəki statuslarını ”Qələmsiz yazılanlar” başlığı altında təqdim etməyə başladı.

Doğrudan da sosial şəbəkələrdə, xüsusən də ”Fasebook”da aparılan ədəbiyyat söhbətləri, ədəbiyyatın və ədəbiyyatşünaslığın ən müxtəlif məsələləri ilə bağlı paylaşılan statuslar, onlara yazılan şərhlər heç də digər yayım üsullarından (qəzet, jurnal və hətta internet saytları) geri qalmır, hətta deyərdim ki, onları funksionallığı və hərəkiliyi baxımından üstələyir” (”Ədəbiyyat qəzeti”, 7 sentyabr 2019-cu il).

### *Rəşad Məcidin elektron yaradıcılığı*

mövzu etibarilə zəngin, mənalı, çoxqatlı, üslubi cəhətdən bədii, cazibədar və rəngarəngdir. Onun toxunduğu sahələri təxminən belə qruplaşdırmaq olar: portretlər, siyasi təhlillər - siyasi publisistika, mənəvi-əxlaqi söhbətlər, psixoloji yaşantılar, ictimai-sosial rezonans, ədəbi-tənqidi təhlil, eksklüziv araşdırma və ədəbi şəxsiyyətlər haqqında söz, tarixi keçmişimizə ekskurs, yaddaş salnaməsi, poetika, romantika, ünsiyyət, nostalji, düşüncələr, keçmişlə bu günün harmoniyası, müniatür hekayələr, aforizmlər və s. Bütün bunlar Rəşad Məcidə xas sadəliklə, təmkinlə (bəzən də şimşək çılğınlığı ilə) bədii sözün və təxəyyülün səyyar qanadlarında, ağıl və məntiqin dərin fəlsəfəsində əyarlanır. ”Hava limanı-1”, ”Hava limanı-2”, ”Yuxu”, ”Qara reyhan”, ”Göy üzü”, ”Ağanisənin duası”, ”Köhnə Bakı üçün nostalji” xarakterik nümunələr kimi nəzəri cəlb edir. Onun aforizmlərindən bir neçə seçmə: ”Deyir, cənnət başqalarının qəlbində işğal etdiyimiz yerdədir”, ”Qəzəb ədalətsizlikdən doğur”, ”Kənddən şəhərə hamı eyni arzuyla gəlir”, ”Əleyhinə danışılırsa, demək, varsan, mövcudsan. Lap yüz il əvvəl ölənlərin də qeybətini edirlərsə, onlar da diridir”, ”Buxovlar olmasa, xaos yaranar! Buxovlar idarəetmənin ən vacib həlqəsidir. Dinin, dövlətin, qanunların, cəmiyyətin, mentalitetin, ailənin... buxovları! Yaşasın buxovlar!”, ”Əzmkarlıq abırsızlığa çevrilmirsə, sonda rəğbət yaradır” və s. və i.a. Kitabı oxuyanlar hamısını gözdən keçirə biləcəklər.

Bir dəfə Xalq yazıçısı, böyük ustad Mirzə İbrahimov məndən sözarası soruşdu: ”Loğman - bala, makinada yazırsan, yoxsa qələmlə?” ”Qələmlə, Mirzə müəllim”, - dedim. Dedi: ”Bərəkallah, düz edirsən, söz gərək barmaqdan süzülə...”. Rəşad Məcidin ”Qələmsiz yazılanlar” kitabını oxuyanda nədənsə, bu söhbəti xatırladım. Qələmlə yazılanlar... Qələmsiz yazılanlar... Söz gərək barmaqdan süzülə... Amma nə fərqi, qələmlə də, qələmsiz də yazanda, əsas odur ki, söz barmaqdan süzülür. Qələmi də barmaqla qucaqlayırsan, klaviaturanı da barmaqla döyəcləyirsən. Hər iki halda ürəkdən axıb gələn qan barmağı hərəkətə gətirir, beynin və ruhun yaddaşı barmaqdan boylanır. Əsas odur ki, bu prosesdə ürək hakimlik etsin. Rəşad Məcidin virtual əsərləri qələmsiz yazılsa da, ürəksiz yazılmayıb. Bu sözlərin, sətirlərin hər birində coşan, çağlayan, yanan, yandıran bir ürəyin hərarəti hiss olunur.

**Rəşad Məcidin kitablarından birinin adı ”Dəlicəsinə” adlanır. Dəlicəsinə sözü insan ehtiraslarının və ruhunun sərhədsiz yüksəlişinin atributu kimi səslənir. Dəlicəsinə (Koroğlunun dəliləri) döyüşmək, dəlicəsinə işləmək, çalışmaq, dəlicəsinə yazıb-yaratmaq, dəlicəsinə sevmək... Dəli bir sevda... Bəlkə elə Qarabağımızı da Rəşadın və Rəşad kimi vətənpərvərlərimizin torpağa, Vətənə olan dəlicəsinə məhəbbəti qaytaracaq?!**